2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 360203,8 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 329709,8 min ABŞ dollarını yaxud 91,5 faizini ixrac, 30494 min ABŞ dollarını yaxud 8,5 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 8,1 faiz azalmış, ixracın həcmi isə 1,2 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 299215,8 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.